**Moskva və bütün Rusiyanın Patriarxı**
**KİRİLLİN**
**Rus Pravoslav Kilsəsinin**
**arxipastırlarına, keşişlərinə, dyakonlarına,**
**rahiblərinə və bütün sadiq övladlarına**

# Pasxa müraciəti

**Ey Rəbbin sevimli arxipastırlar həzrətləri,**
**möhtərəm presviterlər, Tanrı aşiqi rahib**
**və rahibələr, əziz bacılar və qardaşlar!**

Müqəddəs İlahiyyatçı Qriqorinin sözlərinə görə, *təkcə insani və dünyəvi bayramları deyil, hətta Məsihin və Məsih üçün qeyd edilən bayramları günəşin ulduzları üstələdiyi kimi üstələyən* (Müqəddəs Pasxa gününə 45-ci Moizə) bu *Bayramların Bayramı və Şənliklərin Şənliyi* günündə böyük sevinclə sizə qədim və əbədi yeni, hamıya tanış olan və eyni zamanda daim qəlbimizi ruhlandıran bir salamı çatdırıram:

**MƏSİH DİRİLDİ!**

Bu iki həyatverici sözlər o qədər güc ehtiva edir ki, onlardan insanların üzləri mənəvi sevinclə parlayır və ətrafımızdakı gerçəklik həqiqi mənada

dəyişilir: *göy, yer və hətta cəhənnəm işıqla dolur, görünən və görünməyən dünya şənlənir, çünki Məsih Dirildi – əbədidir sevinc* (bayramın kanonu).

**X**ilaskarın dirilməsi təkcə müqəddəs mətnlərdən öyrəndiyimiz tarixi hadisə deyil. Bu, imanın təməl daşıdır və müqəddəs Moskvalı Filaretinin sözlərinə görə, əbədi müjdə, fikrin, təəccübün, şükranlığın və ümidin mənbəyidir (Müqəddəs Pasxa günü moizəsindən).

**T**əcəssümü, əzabı və üç gündən sonra dirilməsi ilə Xilaskar insan təbiətini yeniləyir, bizi günahın və ölümün əsarətindən xilas edir, insanlara Səmavi Padşahlığın qapılarını açır və bizə Yaradanla birliyə gedən yolu göstərir. Məhz *dünyanı Allahla barışdıran Məsihdə* (2 Kor 5:19) hamımızın övladlığa götürülmək və bəraət qazanmaq, əbədi həyata sahib olmaq imkanımız var, çünki *səma altında biz insanlara verilən Allahın ölülər arasından diriltdiyi Nazaretli İsa Məsihin adından başqa bir ad yoxdur ki, onun vasitəsilə xilas ola bilək.* (Həvarilərin işləri 4:10–12).

**X**ilaskarın məzardan qalxması ölümü ölümsüzlüyə, kədəri sevincə, məhkumluğu ümidə çevirir. Çarmıx və Dirilmə Allahı bizə sonsuz mürüvvətin və kamil məhəbbətin Allahı kimi aşkar edir.

**H**ər şeyə qalib gələn Allah məhəbbətinin dərk edilməsi bizi Yaradana şükür etməyə təşviq edir və bizə ən mürəkkəb ruhani vəziyyətləri və çətin şəraitləri dəf etmək üçün güc verir, bizi gündəlik həyatın təlaşından ucaldır, əvvəlki səhvləri düzəltməyə kömək edir və bizə tam və həqiqi mənada

yaşamağımıza, mənəvi cəhətdən inkişaf etməyimizə mane olan ümidsizliyi məhv edir.

Çox vaxt insanlar şərin hökmranlıq etdiyinə və zəfər çaldığına inandıran pis düşüncələrə boyun əyirlər, yaxşılıq isə gözə dəyməz və zəif görünür. Ətrafımızda yaxınlarımızın ölümünü görəndə, İncilin səhifələrindən günahkarların əzabının əbədi olduğunu eşidəndə və *şərin hakimiyyəti altında olan dünyanı* (1 Yəhya 5:19) müşahidə etdikdə ağlımız Məsihin yerinə yetirdiyi Kəffarənin gücünə şübhə edir.

Lakin Allahın Kilsəsi min illər boyu inandırıcı şəkildə şəhadət verir: Xilaskar günaha qalib gəldi, ölümü məhv etdi və cəhənnəmi viran qoydu (müqəddəs Fəsahətli Yəhya. Müqəddəs Pasxa haqqında nəsihət). Məsih ölümün qaçılmazlığına və şərin ümumiyyətinə qalib gəldi və biz onların məğlubiyyətinə iman gözü ilə əbədiyyətdən, Pasxa zirvəsindən baxırıq.

Rəbbin dirilməsi bizə keçmişin ən mühüm hadisəsini xatırlatmaqla yanaşı, həm də gələcəkdə gözlənilən ümumi dirilməyə şəhadət edir, *çünki İsanın ölüb-dirilməsinə inanırıqsa, demək İsaya bağlanaraq vəfat edənləri də Allah Onunla birgə qaytaracaq* (1 Salon 4:14). Bizə Rəbbin əmrlərini yerinə yetirməklə, məhəbbət və mərhəmət əməlləri etməklə, Kilsənin sirrli həyatında iştirak etməklə, Müqəddəs Yazıların kalamlarını xatırlayaraq Məsihin qələbəsinə qoşulmaq və Ona sona qədər sadiq qalmaq gərəkir: *çünki Allahın iradəsini yerinə yetirib vəd olunan şeyi almaq üçün sizin tab gətirməyə ehtiyacınız var* (İbr 10:36).

**B**una görə də, sevimli bacılar və qardaşlar, həvarinin sözünə görə, *cəsarətinizi itirməyin, bu cəsarətə görə mükafatınız böyükdür* (İbr 10:35). Qoy Rəbb İsanın Dirilməsi bayramı ən çətin şəraitdə bizə ümid və güc verən bu həqiqi İlahi vədləri daim xatırlatsın. Qoy bu bayram hamımızı iman və məhəbbətlə yaşamağa ruhlandırsın, çünki bilirik ki, əgər biz ölümü və bütün haqsızlığı məğlub etmiş Məsihlə və Məsihdə olsaq, nə ölüm, nə əzab, nə də şər bizə qalib gələ bilməz.

**G**əlin Rəbbin Pasxa bayramını iffət, gözəl əxlaq və yaxşı əməllərlə qeyd edək (Müqəddəs Afanasiy. Onuncu Pasxa məktubu), belə ki, Məsihdə yeni insana çevrilərək, *həqiqi və var olan Allaha qulluq edərək, Onun ölülər arasından diriltdiyi Oğlunun, yəni bizi gələcək qəzəbdən qurtaran İsanın göylərdən zühurunu gözləyək* (1 Salon 1:9–10). Amin!



**MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRIARXI**

*Məsihin Pasxası*
*2024 il*